'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

9 NOYABR BAZAR 2025 № 43 (4244) Qiyməti - 60 qəpik www.kaspi.az

# ZƏFƏRDƏN GÜC ALAN ORDU

Azadlıq meydanında Qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm Hərbi parad keçirilib. Paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərif də iştirak ediblər.

### TÜRKİYƏ VƏ PAKİSTAN LİDERLƏRİNƏ TƏŞƏKKÜR

Paradda çıxış edən Prezident İlham Əliyev bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq, Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. "Onun bizə verdiyi siyasi və mənəvi dəstək bizə güc verirdi, bizi ruhlandırırdı", - deyə dövlət başçısı əlavə edib.

### YENİ HƏRBİ TEXNİKALAR İLK DƏFƏ NÜMAYİŞ OLUNUB

Paradda yeni hərbi texnikalar nümayiş olunub. Bunların sırasında "Vaşaq" xüsusi əməliyyat vasitələri və "Kobra-2" zirehli tibbi təxliyə texnikası, "Kayra" kamikadze tipli suüstu dəniz vasitəsi, "Hero-120" sərbəst uçan döyüş sursatları, "SkyStriker Block 4" sərbəst uçan döyüş sursatları və digərlərinin adlarını qeyd edə bilərik.

SƏHİFƏ 3-4-də





## Prezident Şəhidlər xiyabanını ziyarət edib

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyaraq xatirəsini ehtiramla anıb.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad ediblər.

Dövlət başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbəmizə həsr olunmuş Hərbi parada hazırlaşan paytaxt Bakının mənzərəsini seyr ediblər.



# ZƏFƏR MUZEYİNİN AÇILIŞI OLUB

Zəfər muzeyi, muzeyi əhatə edən Zəfər parkı, parkın girişindəki Zəfər tağı Azərbaycan tarixinə həkk olunmuş 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi, qəhrəman şəhidlərimizin əziz xatirəsini yaşadır, buraya gələn hər bir ziyarətçinin yaddaşında qürurverici bu tarix yenidən canlanır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər. Zəfər muzeyi Prezident İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

### SƏKKİZ EKSPOZİSİYA ZALI YARADILIB

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada səkkiz ekspozisiya zalı yaradılıb: "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş".




Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır.

### "DƏMİR YUMRUQ" İNSTALYASİYASI

Muzeyin girişində tarixi Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışından fikirlər əks olunur. Muzeyi əhatə edən divarda 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adı ehtiram əlaməti kimi həkk edilib. Divarboyu axan su daimi həyat mənbəyi kimi şəhidlərimizin qəhrəmanlıqları ilə ölümsüzlüyə qovuşduqlarını, hər zaman qəlbimizdə yaşadıqlarını simvolizə edir. Muzeyin ekspozisiya zallarında isə Qarabağda Vətən müharibəsinədək və Zəfər Günündən sonra həlak olmuş şəhidlərimizin adları var.

## ZALLARDA NƏLƏR ƏKS OLUNUB?

Muzeyin "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi" adlı birinci zalında Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağın təbii gözəlliyi, tarixi memarlıq baxımından zənginliyi təqdim edilir. "Ermənistan-Azərbaycan münaqişəsi. Tarixə baxış" zalı Qarabağ münaqişəsinin ağrılı və unudulmaz səhifələrini əks etdirir.

"44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı" adlı üçüncü zal Azərbaycan torpaqlarının azadlığı uğrunda aparılan qəhrəmanlıq mübarizəsini əks etdirir.

"Şanlı Zəfər. Şuşanın azad olunması" adlı dördüncü zalda Azərbaycanın hərb tarixində xüsusi yer tutan, misilsiz taktiki bacarıqla həyata keçirilmiş hərbi əməliyyatı təqdim olunur.

Azərbaycan əsgər və zabitlərinin igidliyinə, fədakarlığına və yenilməz iradəsinə həsr olunan "Qəhrəmanlar yolu" zalı isə ziyarətçilərə torpaqların azadlığı uğrunda aparılan mübarizənin ruhunu hiss etdirir.



## "QARABAĞ AZƏRBAYCANDIR!" ADLANIR

Növbəti zal isə "Qarabağ Azərbaycandır!" adlanır və xalqımız üçün milli bayrama çevrilən Zəfər Gününü, ümumxalq sevincini əks etdirir.

"Dövlət suverenliyinin bərpası. 20.09.2023" adlı yeddinci zal Azərbaycanın suverenliyinin bərpasına həsr olunub.

Muzeyin sonuncu "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş" adlı zalı isə Qarabağın bərpasına və gələcək inkişafına həsr olunub.

Zalın mərkəzindəki instalyasiyada qəhrəman şəhidlərimizin övladlarının səsi ilə Qarabağın parlaq gələcəyinə dair mesajlar verilir.

### "DANIŞAN FOTOLAR"

Ekspozisiya zalının çıxışındakı "Danışan fotolar" adlı bölmədə isə Zəfərin hekayəsini və ruhunu əks etdirən fotolar yer alıb. Burada qonaqlar üçün xatirə kitabı da yerləşdirilib. Muzeydə, eyni zamanda, Auditorium zalı, kitabxana və kafe yaradılıb. Auditorium zalında seminar və konfransların, müxtəlif ictimai tədbirlərin təşkili nəzərdə tutulur. Zəfər muzeyi, muzeyi əhatə edən Zəfər parkı, parkın girişindəki Zəfər tağı Azərbaycan tarixinə həkk olunmuş 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi, qəhrəman şəhidlərimizin əziz xatirəsini yaşadır, buraya gələn hər bir ziyarətçinin yaddaşında qürurverici bu tarix yenidən canlanır.

# ZƏFƏRDƏN GÜC ALAN ORDU

Azadlıq meydanında Qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm Hərbi parad keçirilib. Paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif də iştirak ediblər.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak ediblər.

Ümummilli Lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verib.

### TÜRKİYƏ VƏ PAKİSTAN LİDERLƏRİNƏ TƏŞƏKKÜR

Paradda çıxış edən Prezident İlham Əliyev bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq, Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. “Onun bizə verdiyi siyasi və mənəvi dəstək bizə güc verirdi, bizi ruhlandırırdı”, - deyə dövlət başçısı əlavə edib. Onun sözlərinə görə, müharibədən və şanlı Zəfərimizdən bir il sonra tarixi Şuşa şəhərində Türkiyə və Azərbaycan prezidentləri Şuşa Bəyannaməsini imzalayaraq əlaqələrimizi ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə qaldırmışlar. Dövlət başçısı qeyd edib: “Bu gün bizim hərbi paradda Türkiyə hərbçilərinin iştirakı bizim birliyimizin növbəti təzahürüdür”.

Prezident İlham Əliyev paradda Pakistan Baş nazirinin iştirakını da xüsusi vurğulayıb. “Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir”, - deyən Prezident vurğulayıb: “Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür”.

## “AZƏRBAYCAN HEÇ VAXT İŞĞALLA BARIŞMAQ FİKRİNDƏ DEYİLDİ”

Çıxışına davam edən Prezident İlham Əliyevin sözlərinə görə, 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın-köçkün vəziyyətinə salınmışdı: “Xalqımıza qarşı hərbi cinayətlər törədilib. Etnik təmizləmə siyasəti aparılırdı. Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi. Sülh danışıqları apararkən hər zaman bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək. Uzun müddət davam edən danışıqların nəticəsi sıfır olmuşdu. Səbəbi o idi ki, Ermənistan öz xoşu ilə bir qarış torpaq azad etmək fikrində deyildi. Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi-iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi”.



Prezident bildirib ki, biz iqtisadi müstəqillik qazanmışıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. “Biz müstəqil siyasət aparan ölkə idik və bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı”, - deyə dövlətimizin başçısı əlavə edib.

Prezident İlham Əliyev qeyd edib ki, gənc nəsil Vətənə sevgi ruhunda tərbiyə edilib: “Bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir”.

## “İSTİNTAQ TƏCRİDXANASINDA AZƏRBAYCAN ÇAYINI İÇİRLƏR”

Prezident İlham Əliyev xatırladıb ki, İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanda onların tanklarının Bakı küçələrində olacağını, özlərinin isə Bakıda çay içəcəklərini deyirdilər: “Əslində, onların bu arzuları gerçəkləşdi, onu biz gerçəkləşdirdik. Hərbi Qənimətlər Parkında erməni tankları var, erməni cinayətkarlar isə Bakıda istintaq təcridxanasında Azərbaycan çayını içirlər”.

Dövlət başçısı bildirib ki, biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik: “44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edilib. Biz düşməni qova-qova irəli gedirdik. Nəhayət 8 noyabrda alınmaz qala sayılan Şuşa şəhəri erməni işğalından azad edilib. Biz dağlardan, çaylardan, dərələrdən keçərək şanlı zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan öncə azad edilməsi Ermənistan ordusunun belini qırdı. Bir gün sonra Ermənistan rəsmən təslim olaraq kapitulyasiyaya imza atdı. Beləliklə, biz ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi özümüz bərpa etdik”.

Prezident onu da bildirib ki, bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün “Böyük Qayıdış” Proqramı icra edilir. “Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır”, - deyən dövlətimizin başçısı bütün bu tarixi nailiyyətlər münasibətilə xalqımızı bir daha təbrik edib.

Davamı 4-cü səhifədə

# ZƏFƏRDƏN GÜC ALAN ORDU

Azadlıq meydanında Qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm Hərbi parad keçirilib. Paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif də iştirak ediblər.



Əvvəli 3-cü səhifədə

Daha sonra çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfər Günümüzün 5-ci ildönümündə bizlərlə bərabər olmaqdan böyük bəxtiyarlıq duyduğunu deyib: "İlham Əliyev qardaşıma dəvəti üçün minnətdarlığımı çatdırıram. Sizlərə Türkiyədəki qardaşlarınızın salamlarını gətirdim. Sizlərə 86 milyonun ən səmimi məhəbbətlərini gətirdim. Bu qürur günümüzdə hazırda Türk Dövlətləri Təşkilatındakı qardaşlarımız da bizimlə eyni coşqunu yaşayır. Zəfərimiz mübarək olsun".

### TÜRK DÜNYASI ÜÇÜN DƏ BÖYÜK BİR QÜRUR MƏNBƏYİ

"Bu böyük Zəfərin memarı və lideri olan İlham Əliyev qardaşımı səmimi-qəlbdən təbrik edir, uğurlarının daimi olmasını diləyirəm", - deyən Rəcəb Tayyib Ərdoğan bildirib ki, Qarabağın azad edilməsi təkcə Azərbaycan üçün deyil, Türk dünyası üçün də böyük bir qürur mənbəyidir. Onun sözlərinə görə, bu gün birlikdə 30 illik işğalı sonlandıran möhtəşəm və mükəmməl bir Zəfərin beşinci ildönümünü qeyd edirik: "Vətən müharibəsinin bütün şəhidlərini, Azərbaycanın igid övladlarını bir daha rəhmətlə anıram. Rəbbim şəhidlərimizin ruhlarını şad, məkanlarını inşallah cənnət eləsin".

### "QARABAĞIN HƏR QARIŞINDA HÜZUR VAR, İNKİŞAF VAR"

Türkiyə Prezidenti qeyd edib ki, Azərbaycan Ordusunun Qarabağ torpağında atdığı hər addım, müstəqillik və ləyaqət uğrunda tökülən hər damla qan Türk dünyasının tarixində şərəf nişanəsi kimi ortaq tariximizə qızıl hərflərlə yazılıb: "İlham qardaşımın liderliyi altında Azərbaycan Ordusu Qarabağı işğaldan qurtararaq, könüllərdəki 30 illik yanğını da söndürdü. Allaha şükürlər olsun, bu gün Laçından Şuşaya, Zəngilandan Xankəndiyə, Xocalıdan Füzuliyə qədər Qarabağın hər qarışında hüzur var, inkişaf var, barış, rifah və azadlıq var".

## "BU GÜN ÜRƏYİM FƏXARƏT HİSSİ İLƏ DOLUR"

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif də ürəyinin fərəh hissi ilə dolu olduğunu bildirib: "Bu gün ürəyim fəxarət hissi ilə dolur. Çünki mən burada böyük həvəslə və vətənpərvərlik eşqi ilə möhtəşəm hadisəni qeyd edən güclü Azərbaycan xalqını görürəm".

Məhəmməd Şahbaz Şərif bildirib ki, torpaqlarının azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı, bundan sonra da belə olacaq. Baş nazir deyib ki, Azərbaycanın Qarabağdakı Qələbəsi suverenlik və öz müqəddəratı uğrunda vuruşan bütün xalqlar üçün ədalətin möhtəşəm təntənəsi, ümid yeri oldu.

"Məcburi köçkün ailələrin Qarabağa, öz yurdlarına qayıdışını görmək ilhamlandırıcıdır. Əziz qardaşım cənab Prezident, bu, Sizin Azərbaycan xalqının rifahı və tərəqqisinə olan şəxsi güclü sadiqliyinizin böyük rəmzidir", - deyən Pakistan Baş naziri deyib: "Qarabağın incisi Şuşada, Xankəndidə, Füzulidə, Laçında və azad edilmiş bütün digər ərazilərdə yenidənqurmanın bu cür inanılmaz sürəti tam fenomenal xarakter daşıyır".

### QOŞUN NÖVLƏRİNİN VƏ HƏRBİ TEXNİKANIN KEÇİDİ

Dövlət başçılarının çıxışlarından sonra Hərbi parad başlayıb. Hərbi paradda müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, "Zəfər" və "Qarabağ" ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı altında tribunaya doğru irəliləyib. Dövlət Bayrağının ardınca Azərbaycan Ordusunun və hərbi əməliyyatlarda xüsusilə fərqlənən birləşmələrin Döyüş bayraqları Azadlıq meydanına gətirilib.

Hərbi paradda ilk dəfə ən müasir qoşun növü olan insansız sistem qoşunlarının parad heyəti keçib.



## YENİ HƏRBİ TEXNİKALAR İLK DƏFƏ NÜMAYİŞ OLUNUB

Daha sonra hərbi texnikaların keçidi olub. Paradda Azərbaycanın əldə etdiyi yeni hərbi texnikalar ilk dəfə nümayiş olunub. Bunların sırasında "Vaşaq" xüsusi əməliyyat vasitələri və "Kobra-2" zirehli tibbi təxliyə texnikası, "Kayra" kamikadze tipli suüstü dəniz vasitəsi, "Hero-120" sərbəst uçan döyüş sursatları, "SkyStriker Block 4" sərbəst uçan döyüş sursatları, uzaq məsafəli hədəfləri yüksək dəqiqliklə məhv edən, 370 mm çaplı və 200 kiloqramlıq qəlpəli-fuqas döyüş başlığına malik "Predator Hawk" silahı, yeni beşinci nəsil "IceBreaker" qanadlı raket kompleksi və digərlərinin adlarını qeyd edə bilərik.

Hərbi texnikaların keçidindən sonra Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri Hərbi parad üçün Xəzər dənizinin sahil sularında yüksək döyüş hazırlığı nümayiş etdirib. Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu olub.

Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus "F-16" qırıcı təyyarələri və "Bayraktar Akıncı" PUA-sı Bakı səmasında uçuş həyata keçirib.

Azərbaycan tərəfindən silahlanmaya yeni qəbul edilmiş "JF-17" çoxməqsədli qırıcı təyyarələr də paradda ilk dəfə nümayiş olunub.

Hərbi paradda İL-76 hərbi nəqliyyat və silahlanmaya yeni qəbul edilmiş C-27J hərbi yük təyyarələrinin nümayişi də diqqət çəkib. Üçlü uçuşu polkovnik leytenant Zəfər Fərhadov, "Rəşadət" ordenli polkovnik Ruslan Ələkbərov və "Qarabağ" ordenli polkovnik Vüqar Salahov idarə edib.

























**Fotolar:** Global Photostock



# TARİXİN ƏN GÜCLÜ AZƏRBAYCANI

**Müasir Azərbaycan tarixi Zəfərdən sonra təkcə lideri olduğu Cənubi Qafqazda yox, daha böyük coğrafiyada, ümumiyyətlə, beynəlxalq münasibətlər sistemində artıq yeni statusda çıxış edir. Bu, Zəfərin Azərbaycana bəxş etdiyi ən böyük nailiyyətlərdən biridir.**

RASİM MƏZAHİROĞLU

Azərbaycanın ilk yubileyini qeyd etdiyi Zəfər Günü yalnız hərbi qələbənin deyil, həm də tarixi ədalətin, milli iradənin və müstəqil dövlətçilik gücünün bütün suveren ərazilərimiz üzərində bərpasının rəmzidir. Düşmənlərin belinin qırıldığı bu gün Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, torpaqlarımıza göz dikənlərin ədalət önündə mühakiməsinin də simvoludur. Bu, eyni zamanda xalqımızın yenilməzliyinin və həmrəyliyinin, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin təcəssümüdür. Ən nəhayət, Zəfər Günü təkcə Azərbaycanın torpaqlarının yox, həm də milli mənəviyyatımızın, ruhumuzun işğal sindromundan azad olunmasının ifadəsidir. Qalib, qürurlu Azərbaycan xalqının imzalar içində imzasıdır.

## ƏSRİMİZDƏ AZƏRBAYCAN KİMİ İKİNCİ ÖLKƏ YOXDUR

Qarabağ və Şərqi Zəngəzurun Ermənistan işğalından azad edilməsi Azərbaycan tarixində yeni mərhələnin başlanğıcı oldu. Prezident İlham Əliyevin qətiyyəti, xalqın lideri ətrafında dəmir yumruq kimi birləşməsi, Silahlı Qüvvələrinə sonsuz inamı cəmi 44 gün ərzində tariximizdə möhtəşəm Zəfər səhifəsinin yazılmasına gətirib çıxardı.

Rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də bütün cəbhə boyu başlayan uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək beş şəhər, dörd qəsəbə və 286 kənd erməni işğalından azad olundu. Belə geniş miqyasda müharibə üçün çox qısa hesab olunan zaman kəsiyində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun üç kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun doqquz kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi və digər ərazilər azad olundu. Həmin ilin noyabrın 8-də Qarabağın tacı olan Şuşa şəhərinin işğalçılardan təmizlənməsi ilə Vətən müharibəsi kulminasiya nöqtəsinə çatdı. Bunun ardınca düşmən məğlubiyyətini qəbul edərək, kapitulyasiyasını rəsmən təsdiqlədi.

Ata-baba ənənələrimizə uyğun olaraq, Ali Baş Komandan döyüş meydanında yenilən düşmənə rəhm etdi, ordumuz döyüş əməliyyatlarını dayandırdı. Qazanılmış qələbə isə təkcə hərbi sahədə deyil, həm də beynəlxalq hüquq müstəvisində ədalətin bərpası oldu. BMT qətnamələrinin illərlə kağız üzərində qaldığı bir vaxtda, Azərbaycan onları öz gücü ilə təkbaşına icra etdi. Son beş il ərzində, ümumiyyətlə yaşadığımız əsrdə belə uğura imza atan ikinci bir dövlət yoxdur.

## DÖYÜŞDƏ ƏLDƏ OLUNAN ZƏFƏRLƏRİN UĞURLU DAVAMI

İkinci Qarabağ müharibəsində Azərbaycan savaşı təkcə döyüş meydanında yox, həm də informasiya cəbhəsində böyük məharətlə, olduqca uğurlu bir taktika ilə apardı. Dövlət başçısının Vətən müharibəsi dövründə beynəlxalq ictimai rəyin formalaşmasında həlledici mövqedən çıxış edən, qlobal miqyasda fəaliyyət göstərən ən böyük media qurumlarına 30-a yaxın müsahibə verməsi, Azərbaycanın haqq davasını bütün dünyaya çatdırması Ermənistana, onun havadarlarına vurulan ağır zərbələr oldu. İnformasiya cəbhəsindəki qələbələr döyüş meydanında əldə olunan zəfərləri üzvi bir şəkildə tamamladı. Qələbənin nəticəsi olaraq, noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə atılmadan düşmən tapdağından azad olundu.

## 23 SAAT 43 DƏQİQƏLİK ANTİTERROR ƏMƏLİYYATI

Azərbaycanın döyüş meydanında qazandığı qələbəyə, kapitulyasiya etməsinə baxmayaraq, Ermənistan havadarlarının dəstəyi və təhriki ilə Qarabağda separatizmi yaşatmaq kimi sərsəm ideyadan əl çəkmədi. Silahlı qüvvələrini Xankəndi və ətraf ərazilərdən çıxarmaqdan vaz keçdi. Halbuki, Azərbaycan həmin qüvvələrin getməsinə imkan yaratmışdı, bu, həm də Ermənistanın üzərinə götürdüyü rəsmi öhdəlik idi. Lakin bu dəfə də düşmən məkrli əməllərindən əl çəkmədi, Azərbaycanın suverenliyinə təhdid yaratmaqda davam etdi. Belə vəziyyətdə lokal xarakterli antiterror əməliyyatının keçirilməsi zərurətə çevrildi. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazilərimizdə separatizmin tabutuna sonuncu mismar da vuruldu. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat erməni separatçılarının ağ bayraq qaldırmasına, yenə də Azərbaycanın mərhəmətinə sığınmasına səbəb oldu. Beləliklə, Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü, antiterror əməliyyatlarında suverenliyi bərpa edildi. Elə bu kontekstdə Qazax rayonunun dörd kəndi də yenə bir güllə atılmadan Azərbaycanın nəzarətinə qaytarıldı.

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YENİ STATUSDA

Şanlı Zəfər həm də tarixin ən güclü Azərbaycanının yaranmasına zəmin formalaşdırdı. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı bu xüsusda Prezident İlham Əliyev qeyd etdi: "Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır".

Zəfərin davamı olaraq, Azərbaycan artıq postmüharibə dövründə işğaldan azad olunan ərazilərdə böyük bərpa və quruculuq işləri görür, paralel olaraq, Böyük Qayıdış prosesi reallaşdırılır.

Müasir Azərbaycan tarixi Zəfərdən sonra təkcə lideri olduğu Cənubi Qafqazda yox, daha böyük coğrafiyada, ümumiyyətlə, beynəlxalq münasibətlər sistemində artıq yeni statusda çıxış edir. İndi Azərbaycan bir çox regional, bəzi hallarda qlobal xarakterli proseslərə yön verən dövlətlərdən biridir. Bu, Zəfərin Azərbaycana bəxş etdiyi ən böyük nailiyyətlərdən biridir, ölkəmizin bundan sonra da möhtəşəm yüksəlişinin təməl daşıdır.



REGİONDAKI QEYRİ-MÜƏYYƏNLİK VƏ DÜŞMƏNÇİLİK ETİMAD ATMOSFERİ İLƏ ƏVƏZ OLUNUR

# ZƏFƏRİN GEOSTRATEJİ KODLARI

Azərbaycanın Zəfərdən sonra izlədiyi strategiya onu dünya kommunikasiya sistemləri üzərindən mövqeyini möhkəmləndirir. Beləliklə, Azərbaycan özünü regionda yeni nizam yaradan güc kimi strukturlaşdırır.



AQŞİN KƏRİMOV

Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi 44 gün davam edib. Müharibə noyabrın 9-dan 10-na keçən gecə Ermənistanın məğlubiyyətini bildirən kapitulyasiya aktına imza atması ilə nəticələnib.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycanın Qarabağ müharibəsindəki qələbəsi münasibətilə hər il noyabrın 8-i Zəfər Günü kimi qeyd edilir.

### ERMƏNİSTAN ÜZƏRİNDƏKİ QƏLƏBƏNİN EFFEKTİV NƏTİCƏLƏRİ

8 Noyabr - Zəfər Günü kəskin təzadlı dünya nizamında və qlobal idarəetmədə hüquqi cəhətdən problemlərin olduğu zamanda Azərbaycanın Ermənistan üzərində genişmiqyaslı qələbəsinin effektiv nəticələrini ortaya qoyur.

Azərbaycan Ermənistan üzərində qələbənin məntiqi davamı olaraq 2023-cü ilin sentyabrında antiterror əməliyyatları keçirərək regionda separatizmə son qoydu. Beləliklə, 44 günlük Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünün bərpa edilməsi dövlət suverenliyinin təmin edilməsi prosesi ilə birləşdi. Azərbaycanın Ermənistanla sərhədlərin delimitasiya prosesi çərçivəsində Qazaxın İrəvanın nəzarətində olan 7 kəndindən 4-nün qaytarılmasına nail olması isə diplomatiya vasitələrinin və siyasi alətlərin masada nə qədər güclü olduğuna dəlalət etdi.

Bir sözlə, Azərbaycan xarici siyasət konturlarını Zəfər doktrinasının tələb və prinsipləri əsasında gücləndirdi və ona qarşı olan qüvvələrin Cənubi Qafqazdakı reallıqları qəbul etməsi üçün böyük səylə çalışdı. Azərbaycan bununla regionda təhlükəsizlik və risklərlə əlaqədar olan etibarsızlıq mühitini etimad atmosferi və əməkdaşlıq modeli ilə əvəzləməyə nail olaraq bir çox riski azaltdı.

Azərbaycanın bu nümunəsi dünyada mühüm bir presedent yaratdı. Rəsmi Bakı ərazi münaqişələrinin həllində diplomatiya standartlarının, beynəlxalq hüququn işlək olmaması fonunda güc alətləri ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdi.

### AZƏRBAYCANIN LİDERLİK ROLU QLOBAL ARXİTEKTURAYA DAŞINIR

Azərbaycan BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçünün (ABŞ, Rusiya və Fransa) həmsədrlik etdiyi ATƏT-in Minsk Qrupunun ləğvi prosesində də nailiyyət əldə edərək eksklüziv potensialını ortaya qoydu. Qeyd edək ki, sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci il tarixindən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılıb.

Bu həm də o deməkdir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycanın liderlik rolunun mühüm xüsusiyyətlərini regional çərçivələrin sərhədlərindən qlobal arxitekturaya daşımağı bacarır. Eyni zamanda, işlək olmayan beynəlxalq təşkilatların format olunmasındakı qətiyyətini irəliyə doğru aparır.



## TƏHDİDLƏRƏ EFFEKTİV CAVAB VERƏN MÜDAFİƏ QURULUŞU

Bu, beynəlxalq dünya nizamının formalaşmasındakı quruculuq prosesində Azərbaycanın yerini müəyyən edən bir faktordur və onun cari zaman kateqoriyasındakı mövqeyini konseptual olaraq belə qiymətləndirmək olar:

- Azərbaycan qlobal münasibətlər sistemində hərbi rəqabət, onun yaratdığı strateji toqquşma müstəvisinə diqqət edərək hərbi potensialını əhəmiyyətli dərəcədə təkmilləşdirir.
- Azərbaycan genişlənən xarici siyasət meyillərində strateji müdafiə mexanizmləri formalaşdırır. Bu, Azərbaycanın strateji müttəfiqi Türkiyə ilə dərinləşən əlaqələrinə və Bakının strateji tərəfdaşlarının, müttəfiqlərinin siyahısının genişlənməsinə əlavə təkan verir.

Beləliklə, Azərbaycan özünü regionda yeni nizam yaradan güc kimi strukturlaşdırır. Rəsmi Bakının NATO və Alyansın lokomotivi ABŞ ilə strateji tərəfdaşlıq səviyyəsi regiondakı geosiyasi prosesləri mərkəzləşdirən faktora çevrilir.

Azərbaycan Çinlə də müttəfiqlik əlaqələrini prioritetləşdirərək yeni strateji mexanizmlər əldə edir. Bu o deməkdir ki, Azərbaycan artıq fövqəldövlətlərin rəqabətinə, şiddətli davam edən müharibələrin yaratdığı təhdidlərə effektiv cavab verən müdafiə quruluşuna malikdir.




## AZƏRBAYCANIN ZƏFƏRDƏN SONRA İZLƏDİYİ STRATEGİYA

Azərbaycanın Zəfərdən sonra izlədiyi strategiya onu dünya kommunikasiya sistemləri, o cümlədən dəhlizlər üzərindən mövqeyini möhkəmləndirir. Bu, Zəngəzur dəhlizinə münasibətdə də özünü parlaq şəkildə göstərir. Zəngəzur dəhlizi çoxtərəfli platformalar üçün cəlbedici mərkəz kimi çıxış edir. Dünyadakı strateji rəylərin, o cümlədən ABŞ, Rusiya və Çinin Zəngəzur koridoru ilə bağlı mövqelərinin konstruktiv meyarlara söykənməsi Azərbaycanın qlobal sistemdəki manevr imkanlarını genişləndirir.

2025-ci ilin avqustunda ABŞ Prezidenti Donald Tramp vasitəsilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın əldə etdiyi razılıq isə Zəngəzur koridorunun beynəlxalq dəhlizlər iyerarxiyasındakı rəsmilik dərəcəsini artırdı. Zəngəzur dəhlizi türk coğrafiyasındakı birlik ideallarını təşviq etdiyindən prosesin ideoloji miqyası da xüsusi çəki qazanır. Burada biz İlham Əliyevin Ermənistanı yad təsirlərdən xilas etmək üçün göstərdiyi səylərdə əhəmiyyətli məsafə qət etdiyini də deyə bilərik. Bu, Azərbaycanın Qələbə doktrinasının Ermənistanın içərilərinə doğru yön aldığını göstərir və İrəvanı Bakının sayəsində daha təhlükəsiz və izolyasiyadan xilas olan modelə təşviq edir. Azərbaycan Ermənistanla sülh gündəmi kontekstində regiondakı güc münasibətlərində əhəmiyyətli dəyişikliklərin olacağına işarə verir. Bu, yeni dünya nizamında Azərbaycanın Cənubi Qafqazın mərkəzi gücü olaraq qalmasını səciyyələndirəcək fərqli kodlar yazmasına aparıb çıxara bilər.

MƏKTƏBDƏ Kaspi 9 NOYABR BAZAR 2025 9

## "ONLAR ELƏ TƏRBİYƏ ALMIŞDILAR Kİ, VƏTƏN UĞRUNDA SAVAŞI CANLARINDAN ÜSTÜN TUTDULAR"

# "ZƏFƏRƏ GEDƏN YOLU HEÇ VAXT UNUTMAMALIYIQ"


HAZIRLADI



Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az


**"YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi, ehtiyatda olan kapitan Elvin Hüseynov:** "Bu Zəfər bizə milli kimliyimizi qaytardı, milli oyanışımıza təkan verdi. Suverenliyimizi, torpaqlarımızın bütövlüyünü bərpa etdi, qəddimizi dikəltdi. Bizi indi bütün dünyada tanıyır və qəbul edirlər".



"Vətən Müharibəsi xalqımızın nə qədər vətənpərvər, böyük olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Azərbaycan tarixi torpaqlarına - Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı".

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Kaspi" qəzetinin birgə reallaşdırdığı "Məktəbdə" layihəsi çərçivəsində paytaxtdakı 151 nömrəli tam orta məktəbdə keçirilən tədbir böyük Zəfərimizin 5 illik yubileyinə təsadüf etdi.

"YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi, ehtiyatda olan kapitan Elvin Hüseynov şagirdlərə müharibə xatirələrindən, rəhbərlik etdiyi fondun fəaliyyətindən və Zəfərin dəyərindən danışdı.

### "BU, BİZİM ÜÇÜN BÖYÜK ŞƏRƏFDİR"

E.Hüseynov özü haqqında məlumat verərək Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, daha sonra isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil aldığını bildirdi: "2006-2007-ci illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Zabit İxtisas Kursunu müvəffəqiyyətlə bitirib, müxtəlif hərbi hissələrdə, daha sonra Xüsusi Təyinatlı Qüvvələrdə hərbi xidmətimi davam etdirmişəm". Müharibə qazisi Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar xüsusi döyüş əməliyyatlarını yerinə yetirərkən 2 dəfə yaralanıb, səhhəti ilə bağlı ehtiyata buraxılıb. Prezidentin Sərəncamı ilə "İgidliyə görə" və digər medallarla təltif edilib: "Zəfərdən bir ay sonra Prezidentin fərmanı ilə yaradılan "YAŞAT" Fonduna rəhbər təyin olundum. Mənim ən yaxın silahdaşlarım müharibədə şəhid və qazi oldular. Bu gün ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu olaraq şəhidlərimizin ailələrinə və qazilərimizə dəstək göstəririk. Bu, bizim üçün böyük şərəfdir".

### "ONLARIN ƏSAS AMALI TORPAQLARIMIZIN AZADLIĞI OLUB"

Qonaq "Mən monoloqdan çox dialoqu xoşlayıram", - deyə məktəbliləri maraqlandıran sualları cavablandırmağa hazır olduğunu bildirdi.

E.Hüseynov qeyd etdi ki, qəhrəmanlar təkcə döyüş meydanında yetişmir: "Ötən ilin dekabr ayında Azərbaycana məxsus təyyarə Qazaxıstanda qəzaya uğradı. O zaman ekipaj üzvləri əsl qəhrəmanlıq göstərərək qəzalı vəziyyətdə olan təyyarənin sərnişinlərinin əksəriyyətini xilas edə bildilər. Ekipaj üzvləri isə qəhrəmanlıqla həlak oldular. Onlara Milli Qəhrəman adı verildi. Düzdür, döyüş meydanında daha çox insanlar qəhrəmanlıq göstərirlər. Bizim Himnimizə nəzər salın: "Hüququndan keçən əsgər" misrası var. İnsanın ən ali hüququ yaşamaq hüququdur. Bizim qəhrəmanlarımız könüllü surətdə bu hüquqlarından məhrum olub, Vətənin azadlığı uğrunda canlarını fəda ediblər. İndi əlil arabasına məhkum olan, sağlamlığını itirən nə qədər qazimiz var. Onların əsas amalı torpaqlarımızın azadlığı olub".

E.Hüseynov qeyd etdi ki, hər bir insan çalışdığı sahəyə töhfə verərsə, bu, qəhrəmanlıqdır: "Sizin hər biriniz sabah orta məktəbi bitirib işlədiyiniz sahədə Vətənə öz layiqli töhfənizi verə bilərsiniz. Bu, elə Vətənə xidmət deməkdir". Qonaq əlavə etdi: "Hələ hərbi liseydə oxuyanda biz bilirdik ki, torpaqlarımız işğal altındadır və biz onun azad olunması üçün hər an hazır olmalıyıq. Biz bunun üçün döyüş, fiziki və taktiki hazırlıqlarımızı daim təkmilləşdirirdik. Bilirdik ki, cənab Prezident nə vaxt əmr versə, döyüşə hazır olmalıyıq. Müharibədə mənim ən yaxın silahdaşlarım iştirak edirdilər. "Biz onlar üçün nə edə bilərik?"- deyə düşünürdük. Sonra özümüz də müharibə iştirakçısı kimi Vətənə xidmətimizi göstərdik. Xatirələrimiz qürurludur. İndi Zəfərimizin 5 illiyidir. Amma mənim bir gözüm gülürsə, bir gözüm ağlayır. Çünki mən müharibədə ən yaxın silahdaşlarımı itirmişəm".

E.Hüseynov müharibə xatirələrinin həmişə yaddaşında oyaq olduğunu bildirdi: "Müharibədə dostunu itirmək, yoldaşlarının yaralandığını görmək çox dəhşətlidir. Təsəvvür edin, 20 il bir yerdə olduğun dostunu itirirsən. Amma sənin missiyan var. Düşmənə nifrət, Vətənə sevgi ilə döyüşə getməlisən..."

Qonaq qeyd etdi ki müharibədəki döyüş savaş filmlərindəki kimi deyil: "Filmlərdə Rembo təkbaşına bir ordunu məhv edə bilir. Amma real müharibə, savaş meydanı dəhşətlidir. Orada döyüşənlər, qan-qadanı gözləri ilə görənlər qəhrəmanlığın nə olduğunu daha yaxşı bilirlər".

*"Ancaq onlar Ana Vətənin çağırışına getdilər. Biz "YAŞAT" Fondu olaraq daim onların yanındayıq."*

### "ƏN BÖYÜK QƏHRƏMANLAR BİZİM ŞƏHİDLƏRİMİZDİR"

"YAŞAT"ın rəhbəri dedi ki, torpaqlarımız işğaldan azad olunandan, böyük Zəfər qazanılandan sonra bizimlə bütün dünya hesablaşır: "Bu Zəfər bizə milli kimliyimizi qaytardı, milli oyanışımıza təkan verdi. Suverenliyimizi, torpaqlarımızın bütövlüyünü bərpa etdi, qəddimizi dikəltdi. Bizi indi bütün dünyada tanıyır və qəbul edirlər. Biz güclü xalqın nümayəndəsiyik. Biz Zəfəri qeyd etməliyik, amma Zəfərə gedən yolu heç vaxt unutmamalıyıq. Müharibədə vuruşanların əksəriyyəti gənclər idi. Onlar elə tərbiyə almışdılar ki, Vətən uğrunda savaşı canlarından üstün tutdular. Biz nə qədər qəhrəman olsaq da, bu, şəhidlərimizin igidliyi qarşısında geri qalır. Biz onlardan öyrənməliyik. Təsəvvür edin, müharibədən sonra 120 şəhid övladı dünyaya gəlib. Məgər onlar müharibəyə yollananda övladlarının doğulacağını bilmirdilər? Əmin olun, bilirdilər. Ancaq onlar Ana Vətənin çağırışına getdilər. Biz "YAŞAT" Fondu olaraq daim onların yanındayıq. Şəhid ailələri ilə görüşmək həmişə çətindir. Amma o uşaqlar heç vaxt atalarını görməyəcəklər. Onların ataları xalqımız, dövlətimiz üçün canlarını fəda edib. Ən böyük qəhrəmanlar bizim şəhidlərimizdir".

E.Hüseynov rəhbərlik etdiyi fondun fəaliyyəti haqqında danışaraq, "YAŞAT"ın əsas dörd fəaliyyət istiqaməti olduğunu bildirdi: "Şəhid ailələrinin və qazilərimizin məişət şəraitinin yaxşılaşdırılması, istehlak kreditləri, tibb və təhsil. Ailələr hər dörd istiqamət üzrə müraciət etmə hüququna malikdirlər. Vətəndaş hansı müraciətin daha tez həll olunmasını istəyirsə, ilk növbədə o məsələ həllini tapır. Digər müraciətlərə isə növbə ilə baxılır". "YAŞAT" rəhbəri fondun ilkin fəaliyyət göstərdiyi vaxtlara qayıdaraq o zaman ianə kampaniyasının daha güclü olduğunu da qeyd etdi: "Müharibə dövründə ordumuzun maddi-texniki təminatının yüksək səviyyədə təşkil olunmasına baxmayaraq, Azərbaycan xalqı "hər şey cəbhə üçün" deyib, orduya gücü çatan qədər köməklik göstərdi. Uşaqdan böyüyə, hər kəs qələbədə öz payının olmasını istəyirdi. Xalqımız ordumuzun yanında idi. Əsgərlərimiz deyirdi ki, məktəblilərin yazdığı məktublar onlar üçün ən böyük motivasiya olub. Ayrı-ayrı şəxslər, təşkilatlar, dövlət və özəl şirkətlər fonda könüllü yardımlar göstərirdi. Sosial sifariş vardı. Vətəndaş cəmiyyətinin istəyi ilə vahid, mərkəzləşdirilmiş platforma yaradıldı. Prezident də bu istəyi nəzərə alaraq, 2020-ci ilin dekabrın 8-də "YAŞAT" Fondunun yaradılması haqqında fərman imzaladı. Dərhal struktur formalaşdırıldı. Bu fond dövlətin həyata keçirdiyi sosial layihələrə dəstək məqsədilə yaradıldı. İnsanlar və qurumlar fonda yardımlar edirdilər. İlk illərdə artım dinamikası daha yüksək idi. İndi həmin dinamika bir qədər zəifləyib. Fondun maliyyəsi ianə əsasında formalaşır. Biz ianə etməyi əlçatan etmişik. Dünya ölkələrində yaşayan azərbaycanlılar da şəhid ailələrinin və qazilərimizin ailələrinə, onların övladlarının təhsilinə yardım edirlər".



**Fotolar:** Əjdər İbrahimov/Global Photostock

## "Həmişə xəyal qurun, hədəfləriniz böyük olsun"

E.Hüseynov "YAŞAT"-ın təhsillə bağlı fəaliyyət istiqamətinə diqqət çəkdi: "Şəhid ailələri ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olurlarsa, təhsil haqqı dövlət tərəfindən qarşılanır. Ölkə xaricində təhsil almaq istəyən şəhid ailəsi üzvü isə bizə müraciət edə bilər. Dünyanın 100 ən yaxşı universitetindən birinə qəbul olan tələbənin təhsil haqqı "YAŞAT" Fondu tərəfindən tam qarşılanır. Eyni zamanda, fond özəl təhsil müəssisələri ilə əməkdaşlıq edir. Bundan əlavə, "YAŞAT" Fondu tərəfindən dəstəklənən şəhid övladları var. Biz istəyirik ki, şəhid övladları ölkə xaricinə çıxsınlar, dünyanı görsünlər. Buraxılış imtahanlarının nəticələrinə görə ilk onluqda olan şəhid övladları nüfuzlu xarici universitetlərin kamplarına göndərilir. Bu, onların dünyagörüşlərinin genişlənməsinə təsir edir. Əgər həmin uşaqların potensialı imkan verərsə, qoy ABŞ, Kanada, İngiltərə universitetlərinə oxumağa getsinlər. Sonra da qayıdıb Vətənə xidmət etsinlər. Bu istiqamətdə fondumuz onlara bütün dəstəyini göstərir".



"YAŞAT"ın rəhbəri məktəblilərə tövsiyələrini də verdi: "Heç vaxt təşəbbüskar olmaqdan çəkinməyin. Təşəbbüskarlıq sizin əsas bacarıqlarınızdan biri olmalıdır. Çalışıb yeni yanaşma, ideya ilə çıxış edin. Hər şey təhsildən başlayır. Bu gün texnologiya dövrüdür. 4-cü Sənaye İnqilabında yaşayırıq. Siz istəsəniz, Azərbaycanı texnologiya ölkəsinə çevirə bilərsiniz. Necə ki, Estoniya vətəndaşları öz ölkələrini rəqəmsal ölkəyə çeviriblər".

E.Hüseynov şagirdlərə məsləhət gördü ki, peşə seçimində öz istəklərinə üstünlük versinlər: "Bəzən uşaqlar valideynin təhriki ilə hansısa ixtisası seçməli olurlar. Bu, sonradan peşmanlıq yaradır. Öz seçiminizi özünüz edin. Peşə seçərkən 10 ildən sonrakı əmək bazarını nəzərə alın. Unutmayın ki, bugünkü peşələrin çoxu 10 ildən sonra olmayacaq, əvəzində yüzlərlə yeni peşələr yaranacaq. Siz buna hazır olmalısınız. Həmişə xəyal qurun, hədəfləriniz böyük olsun. Mütaliədən vaz keçməyin. Xarici dilləri öyrənin, amma əsas odur ki, öz dilimizi mükəmməl bilin, dilimizə sahib çıxın. Bu, sizin gələcəkdə mükəmməl və müasir bir vətəndaş kimi formalaşmanıza kömək edəcək. Qəhrəmanlıq həm də yüksək təhsilə, intellektə sahib şəxsiyyət kimi yetişərək Vətənə faydalı olmaqdır!"

# ƏDƏBİ DİLİN QORUNMASI MİLLİ MƏSƏLƏ KİMİ

Prezident İlham Əliyevin AMEA Rəyasət Heyətinin üzvləri ilə görüşündə dilimizin qorunması ilə bağlı səsləndirdiyi fikirlər geniş müzakirələrə yol açıb. Qloballaşma, rəqəmsal kommunikasiya, sosial media trendləri və sürətlə dəyişən informasiya mühiti fonunda dilin ədəbi normalarının qorunması strateji əhəmiyyət daşıyır.



**F.ABASOĞLU**

Noyabrın 3-də Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyanın (AMEA) Rəyasət Heyətinin üzvləri ilə görüşündə bir sıra aktual məsələlərə toxundu. O qeyd etdi ki, Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Prezident bəzi hallarda Azərbaycan dilinə xaricdən müdaxilələr edildiyini və bu müdaxilələrin Azərbaycanda da dəstək qazandığını görəndə çox narahat olduğunu qeyd edib:

"Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq, ilk növbədə, öz ana dilini bilməlidirlər".

Ölkənin tanınmış elm adamları qarşısında çıxış edən dövlət başçısının Azərbaycan dilinin qorunması ilə bağlı söylədiyi bu fikirlər geniş müzakirələrə səbəb oldu. Bu fikirlər mediada ədəbi dilin qorunması məsələsini də yenidən gündəmə gətirdi.

### PROBLEMLƏRİN OLDUĞU ZAMAN-ZAMAN DİLƏ GƏTİRİLİR

Ümumiyyətlə, bu sahədə problemlərin olduğu zaman-zaman dilə gətirilir. Biz özümüz də iş prosesində mediada ədəbi dilin qorunması ilə bağlı çətinliklərin olduğunu müşahidə edirik. Bunu televiziya aparıcılarının nitqlərində də, yazılı medianın mətnlərində də asanlıqla görmək olur. Zaman keçdikcə bu səhvlərin adiləşməsi də müşahidə edilir. İnsanlar artıq bu mövzuda mediaya etimad göstərmirlər. Təbii ki, bu, çox acınacaqlı bir durumdur və təcili müdaxilə tələb edir.

## Qloballaşma, rəqəmsal kommunikasiya, sosial media trendləri

Ədəbi dilin normalarının qorunması ilə bağlı institusional çətinliklər də göz qabağındadır. Təəssüf ki, elə AMEA-nın Dilçilik İnstitutunun elmi şərhləri, qəbul etdiyi qərarlar da ciddi qəbul edilmir, etirazlara səbəb olur, bəzən isə hətta ironiya obyektinə çevrilir. Nəticədə xaotik bir durum yaranır.

Prezident İlham Əliyevin AMEA Rəyasət Heyətinin üzvləri ilə görüşündə bu mövzuya toxunması yaşanan problemlərin ən ali səviyyədə də hiss olunduğunu göstərir. Hamı yekdilliklə qəbul edir ki, qloballaşma, rəqəmsal kommunikasiya, sosial media trendləri və sürətlə dəyişən informasiya mühiti fonunda Azərbaycan dilinin ədəbi normalarının qorunması strateji əhəmiyyət daşıyır. Efir məkanında, çap mediası və rəqəmsal media platformalarında ədəbi dil normalarına əməl olunması milli-mədəni dəyərlərin qorunması və dilin saflığının təmin edilməsi baxımından da müstəsna əhəmiyyətə malikdir.




Bu baxımdan, elm ictimaiyyətinin media nümayəndələri ilə birgə operativ qaydada bir araya gəlməsi təsadüfi deyil. Noyabrın 7-də AMEA-da Medianın İnkişafı Agentliyinin və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə "Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi" mövzusunda keçirilən konfrans da bu reallıqdan doğan zərurət idi. Media təmsilçilərinin dilçi alimlərlə birgə mövcud duruma tənqidçi nöqteyi-nəzərindən yanaşması problemlərin aşkarlanması və həll yollarının tapılması baxımından vacib əhəmiyyət kəsb edir.

## Əsas problemlərdən biri dilimizə kənar təsirlərin artmasıdır

Bəli, hər iki tərəf bu sahədə problemlərin olduğunu səmimi şəkildə etiraf edir. Əsas problemlərdən biri kimi dilimizə kənar təsirlərin artması göstərilir. Bütün tərəflər etiraf edirlər ki, mediada xarici sözlərin yersiz işlədilməsi ədəbi dilin normalarını pozaraq gənclərin dil mühitinə mənfi təsir edir.




Digər məsələ TV aparıcıların, çıxış edən qonaqların nitqində heca vurğusuna, fonetik, leksik və qrammatik normalara bəzən kifayət qədər diqqət yetirilməməsidir. Gələcəkdə bu kimi məqamlara diqqət artırılmalıdır. Diqqəti cəlb edən digər bir problem sosial media dili ilə efir dili arasında sərhədlərin demək olar ki, itməsidir. İş o yerə çatıb ki, klassik efir dilində danışanda bu günün gənc nəsli, tamaşaçı bunu köhnəlmiş üslub kimi qəbul edir.

Peşəkarları narahat edən digər bir problem son illərdə orfoqrafiya və orfoepiya lüğətlərinin çap olunmaması, dil korpusu üzərində sistemli işin yekunlaşdırılmamasıdır. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli bu istiqamətdə ciddi iş aparıldığını və yaxın vaxtlarda problemin həll olunacağını vəd etdi.

Gəlinən yekun qənaət budur ki, yaranmış durumda media nümayəndələrinin müvafiq istiqamətdə məsuliyyətinin artırılması, metodoloji yanaşmaların təkmilləşdirilməsi, dil monitorinq mexanizmlərinin genişləndirilməsi, təlim və maarifləndirmə təşəbbüslərinin gücləndirilməsi olduqca vacibdir. Media məkanında dil keyfiyyəti yalnız media peşəkarlığının göstəricisi deyil, eyni zamanda cəmiyyətin mədəni səviyyəsini və intellektual potensialını formalaşdıran əsas amillərdəndir. Azərbaycan Televiziyasının veteran diktoru, jurnalist Gülşən Əkbərovanın dediyi kimi, ana dilimiz bizim kimliyimiz, düşüncə tərzimiz, ruhumuzun ifadəsidir. Onu qorumaq, saflığını saxlamaq isə hər birimizin borcudur.



27 yaşında IV Dövlət Dumasına deputat seçilən Məmməd Yusif Cəfərov Azərbaycan Xalq Cümhuriyyəti hökumətlərində də nazir vəzifəsində çalışıb. O, Azərbaycan Müstəqillik Bəyannaməsini imzalamış 26 görkəmli ictimai-siyasi xadimdən biridir.

# ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN QƏTİYYƏTLİ MÜDAFİƏÇİSİ

RAFİQ SƏFƏROV

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) tanınmış ictimai-siyasi və dövlət xadimlərindən biri də Məmməd Yusif Cəfərovdur. O, 1885-ci il martın 14-də Bakı şəhərində anadan olub. İxtisasca hüquqşünas olan 27 yaşlı Məmməd 1912-ci ildə Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən IV Dövlət Dumasına deputat seçilib. 1912-1917-ci illərdə Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərmiş IV Dövlət Dumasının deputatı olub. O, dumadakı çıxışlarında çar hökumətinin Azərbaycanda yürütdüyü müstəmləkəçilik siyasətini tənqid edib.

1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı baş verərkən, müvəqqəti hökumətin təşəbbüsü ilə IV Dövlət Dumasının Zaqafqaziyadan olan deputatlarından ibarət Xüsusi Zaqafqaziya Komitəsi yaradılır. Onun tərkibinə V.Xarlamov (rus), A.Çxenkeli (gürcü), K.Abaşidze (gürcü), M.Papacanovla (erməni) yanaşı azərbaycanlı M.Y.Cəfərov da daxil edilir. Həmyerlimizə yeni yaradılmış komitədə sənaye və ticarət işlərinə rəhbərlik etmək tapşırılır.

## CAMALYANA ÜNVANLADIĞI NOTA

M.Y.Cəfərov AXC-nin fəaliyyətində də xüsusi rol oynayıb. O, 1918-ci il mayın 28-də Tbilisidə Azərbaycan Müstəqillik Bəyannaməsini imzalamış 26 görkəmli ictimai-siyasi şəxsdən biri olub. Azərbaycan müstəqil dövlət kimi dünyaya bəyan edildikdən sonra M.Y.Cəfərov cümhuriyyətin Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsi təyin edilib. Bu postdakı fəaliyyətində o, Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsiplərinə xüsusi diqqət yetirib. M.Y.Cəfərovun 1918-ci il avqustun 15-də Ermənistanın Gürcüstandakı müvəkkili A.Camalyana ünvanladığı notada qeyd edilirdi: “Mənim hökumətimin tapşırığı ilə sizə bildirirəm ki, Azərbaycan hökumətində olan məlumata görə, Andranikin dəstəsindən ibarət olan erməni hərbi hissələri Ermənistan ərazisindən keçib Azərbaycan ərazisinə daxil olaraq Şuşa şəhərinə gedən yolu və Zəngilan qəzasının bir hissəsi olan Gorusu işğal etmişlər. Erməni hərbi hissələrinin bu hərəkəti Azərbaycan Respublikasına qarşı düşmən aktıdır və bu, gələcəkdə iki respublika arasında dostluq əlaqələrinin saxlanılmasını qeyri-mümkün edir. Erməni qoşunlarının Azərbaycan ərazisinə soxulmasına qarşı hökumətimin adından qətiyyətlə etiraz edərək, xoş qonşuluq əlaqələrinin qorunub saxlanılması naminə həmin hərbi hissələrin təcili olaraq Azərbaycan ərazisindən geri çıxarılması üzrə təcili tədbirlərin görülməsini xahiş edirəm. Əks halda, baş verə biləcək sonrakı hadisələrə görə Azərbaycan hökuməti məsuliyyət daşımır və bütün məsuliyyət məhz yalnız Ermənistan Respublikası hökumətinin üzərinə düşəcəkdir”.

## ƏVVƏL TİCARƏT, SONRA XARİCİ İŞLƏR NAZİRİ

M.Y.Cəfərov müxtəlif məsul vəzifələrdə çalışıb. AXC dövründə 28 may 1918-17 iyun 1918-ci il tarixlərində fəaliyyət göstərmiş I hökumət kabinetində sənaye və ticarət naziri, 14 aprel-22 dekabr 1919-cu il tarixdə fəaliyyət göstərmiş IV hökumət kabinetində isə xarici işlər naziri vəzifəsini tutub. Onun xarici işlər naziri kimi fəaliyyəti dövründə Azərbaycan və Gürcüstan arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb. Bu dövrdə onun azərbaycanlılara qarşı soyqırımı siyasəti əleyhinə Ermənistan Xarici İşlər Nazirliyinə, müsəlman əhalisinin mənafeyinin, əmlakının müdafiə edilməsi haqqında Böyük Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlıqlarına göndərdiyi notalar diqqəti cəlb edir. Onun dövründə - 1919-cu il martın 8-də Azərbaycan ilə Gürcüstan arasında dəmiryolu əlaqələri haqqında müqavilə imzalanıb. Həmin tarixi dövrdə bu müqavilə hər iki dövlət üçün böyük iqtisadi və siyasi əhəmiyyət daşıyırdı.

## PARLAMENTİN SON İCLASINA SƏDRLİK EDİB

Cümhuriyyət dövründə M.Y.Cəfərovun imzaladığı sərəncamla çar Rusiyasının Cənubi Qafqazda yürütdüyü siyasətə dair sənədlər toplusunun hazırlanması üçün xüsusi komissiya yaradılıb. O, 1920-ci il fevralın 2-də Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə parlament sədrinin birinci müavini seçilib və AXC-nin süqutuna kimi həmin vəzifədə çalışıb. Arxiv sənədləri təsdiq edir ki, parlamentin sonuncu iclası məhz onun sədrliyi və Rza bəy Qaraşarlının katibliyi ilə keçirilib.

## BEŞ İLLİK HƏBSXANA HƏYATI

Sirr deyil ki, aprelin 28-də Bakıya soxulmuş işğalçı rus ordusu görünməmiş cinayətlər törədib. Nəticədə Azərbaycanın müstəqilliyinə son qoyulub, cümhuriyyətin timsalında milli dövlət süquta uğradılıb. O dövrdə Azərbaycanın dövlət və hökumət rəhbərlərinin, o cümlədən, M.Y.Cəfərovun həyatında ən ağır və məşəqqətli günlər başlayıb. Müstəqillik yolunda az-çox xidmətləri olmuş ictimai xadimlərimiz, vətənpərvər qüvvələr bolşevik terrorunun qurbanına çevriliblər. Bu siyahıda M.Y.Cəfərov da olub. O, ömrünün beş ilini həbsxana divarları arasında keçirib. Həbsxanadan çıxdıqdan sonra Azərbaycanın pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışıb. 1938-ci il mayın 15-də Bakının Şağan kəndində vəfat edib.



# DÜNYA NÜVƏ MÜHARİBƏSİNİN ASTANASINDA

Üçüncü Dünya müharibəsi təhlükəsi ilə bağlı xəbərdarlıqlar artır. Bir çox siyasilər bu müharibənin daha çox nüvə qarşıdurmasına çevrilmə ehtimalından narahatdırlar. Artan gərginliklər fonunda diplomatik səylər heç bir nəticə vermir.

AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Tramp "Üçüncü Dünya müharibəsi olmayacaq və biz bunun heç bir yerdə başlamasını istəmirik", - deyə bəyan etsə də, artıq bu müharibə gedir. Ukrayna ətrafında cərəyan edən münaqişə də bunu təsdiqləyir. Ukrayna müharibəsi dünyanı ikiyə bölüb, qütbləşmə güclənib. Fövqəldövlətlər - ABŞ, Çin və Rusiya arasında rəqabətin dərinləşməsi, enerji, ticarət və təhlükəsizlik sahəsində yaranan qarşıdurmalar, eləcə də regional blokların silahlanmanı artırması yeni müharibə narahatlıqlarını gücləndirir. "Soyuq müharibə" dövründən fərqli olaraq, indi dünya çoxqütblü, lakin eyni zamanda daha qeyri-sabit bir mərhələyə qədəm qoyub.

**NÖVBƏTİ MÜHARİBƏNİN DƏ "EV SAHİBİ" AVROPA OLACAQ?**

21-ci əsrin 25 ili lokal və regional konfliktlər, etnik qarşıdurmalar və silsilə terror aktlarının "bolluğu" ilə yadda qalıb. Hər iki dünya müharibəsinin başlandığı Avropa növbəti dünya müharibəsinə də "ev sahibliyi" edir. Dünyanın gözü qarşısında Rusiya Avropada sərhədləri dəyişdirir və ərazi bütövlüyünü dəfələrlə tanıdığı Ukraynanın suveren ərazilərini özünə birləşdirməyə çalışır. Ayrı-ayrı siyasətçilər, o cümlədən prezidentlər, baş nazirlər dəfələrlə bu barədə fikirlər səsləndirib, xəbərdarlıq ediblər. Elə Azərbaycan Prezidenti İlham Əliyev də yerli telekanallara müsahibələrindən birində demişdi ki, indi faktiki olaraq Üçüncü Dünya müharibəsi gedir.

**1962-Cİ İL BÖHRANININ TƏKRARI**

Rusiya-Ukrayna müharibəsi uzanır, NATO ilə Moskva arasında qarşıdurma və nüvə təhdidləri artır, Avropa ən riskli bölgələrdən birinə çevrilib. Eyni zamanda Orta Şərqdə İran-İsrail münasibətləri gərginliyini saxlayır, Fələstin böhranı həllini tapmayıb... Asiyada isə Çin-Tayvan münasibətlərində hərbi risklər, Şimali Koreyanın raket sınaqları diqqət mərkəzindədir. Bu günlərdə isə Fransanın "AgoraVox" nəşri xəbərdarlıq edib ki, NATO-nun Kalininqradı dənizdən blokadaya alması qlobal münaqişəyə səbəb ola bilər. "Əgər NATO Kalininqradın Baltik dənizinə çıxışını bağlamağa cəhd edərsə, 1962-ci il böhranı təkrarlana bilər", - deyə nəşr qeyd edir. Məqalənin müəllifləri vurğulayıblar ki, region Kuba raket böhranı hadisələrinə bənzər şəkildə beynəlxalq qarşıdurma üçün yeni bir qaynar nöqtəyə çevrilə bilər.



## BU MÜHARİBƏ SİVİLİZASİYANIN SONU OLA BİLƏR

Yeri gəlmişkən, son vaxtlar siyasətçilər və diplomatlar Üçüncü Dünya müharibəsindən, nüvə təhlükəsindən daha çox danışmağa başlayıblar. Məsələn, Serbiyanın sabiq baş nazir müavini Aleksandr Vulin deyib ki, Üçüncü Dünya müharibəsi çoxdan başlayıb, dünya nüvə müharibəsinin astanasındadır. Onun fikrincə, bu, Almaniyanın birləşməsi və İkinci Dünya müharibəsinin nəticələrinin yenidən nəzərdən keçirilməsi ilə başlayıb. Vulin hesab edir ki, Qərb ölkələrinin siyasəti dünyanı nüvə mühari-bəsinin astanasına gətirib çıxarıb. Belə bir şəraitdə siyasətçi böyük gücləri təcili olaraq razılığa gəlməyə, birqütblü dünya nizamının sona çatdığını qəbul etməyə və yeni müqavilə imzalamağa çağırıb. Onun sözlərinə görə, yeni müqavilə heç olmasa 50 illik dinc həyat və ya müharibələrsiz bir dövrü təmin etməlidir. Vulin ABŞ Prezidenti Donald Trampın nüvə sınaqları ilə bağlı fikirlərini də şərh edərək söyləyib ki, Rusiyanı nüvə silahı ilə qorxutmaq təhlükəlidir: "Rusiyanı nüvə silahı ilə qorxutmaq o qədər də ağıllı gediş deyil. Rusiyanın nüvə potensialına cavab vermək sivilizasiyanın sonu olardı".



Leonid Kuçma

## İLK ADDIMI FRANSA ATACAQ?

Hesab edilir ki, Şərqi Avropadakı müharibənin gedişatında Fransa qoşunlarını Ukraynaya göndərərsə, bu, Rusiya ilə birbaşa döyüşlərə girmək demək olmayacaq. Rusiya genişmiqyaslı hücumlarını effektiv şəkildə davam etdirərsə və müəyyən irəliləyiş əldə edib Kiyevə çatarsa, o halda Fransa ilə yanaşı, Böyük Britaniya, Almaniya, Polşa da Ukraynaya qoşun göndərə bilər. Bu baş verərsə, artıq Avropa ilə Rusiya arasında birbaşa toqquşma olacaq və bu, Dünya müharibəsinə gətirib çıxara bilər. Lakin Avropa və Rusiyanın belə bir eskalasiyaya getmələri inandırıcı görünmür. Məsələn, 1994-2005-ci illərdə Ukrayna Prezidenti olmuş Leonid Kuçma hesab edir ki, Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibə sona doğru irəliləyir. Ukrayna tarixində ikinci müddətə yenidən seçilən yeganə prezident olan Kuçma Rusiya ordusunun məruz qoyduğu mütəmadi kütləvi bombardmanları, nasist qoşunlarının Çerniqov vilayətindəki Kuçmanın doğma kəndi Çaykinonu bombalamalarıyla müqayisə edib. Hadisələrin hansı variantının - indiki müharibənin sonu və ya Üçüncü Dünya müharibəsinin başlanğıcının - daha real olduğunu müqayisə edən Kuçma deyib: "Ukraynalı olaraq mən ordumuzun gücünə inanıram, raket mütəxəssisi kimi isə - nüvə çəkindirmə gücünü bilirəm. Buna görə də, bizim müharibə mütləq nə vaxtsa bitəcək, Üçüncü Dünya müharibəsi isə yalnız nüvə müharibəsi ola bilər. O da çətin ki nə vaxtsa başlasın".



Donald Tramp

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

“QARABAĞ MÜHARİBƏSİ ZAMANI ŞƏHİD VƏ QAZİ AİLƏLƏRİNƏ ƏHƏMİYYƏTLİ DƏSTƏK GÖSTƏRDİK”

# “TƏŞKİLATIMIZ ÜZVLƏRİN QAYĞISI İLƏ YAŞAYIR”



**Nazilə İsgəndərova: “Burada xaricdən maliyyə alan təşkilatlara qarşı ehtiyatlı münasibət var və onların Kanada dövlətinə bağlılığına şübhə ilə yanaşılır. Biz bu həssaslığı anlayırıq və şəffaf olmayan layihələrdə iştirak etmirik”.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Kanadada yaşayan azərbaycanlıların sayı hələ çox az olduğu bir dövrdə Ontario bölgəsindəki azərbaycanlı qadınlar bir araya gələrək Azərbaycan Qadınlarına Dəstək Təşkilatını yaradıblar. Azərbaycan qadınlarına yardım etmək, onların sosial, mədəni və ictimai sahələrdəki fəaliyyətlərinə dəstək göstərmək, eyni zamanda yeni immiqrasiya edənlərə istiqamət vermək və icma içində birlik yaratmaq məqsədi ilə fəaliyyətə başlayan təşkilat artıq 20 illiyini qeyd edir.

Təşkilatın sədri, Toronto Universitetinin professoru Nazilə İsgəndərova ilə müsahibəmizdə həm də son illər Şimali Amerikaya yaşamağa, təhsil almağa və s. yollanan həmvətənlərimizin həyatına toxunduq.

### “BİZ KANADAYA İLK DƏFƏ GƏLƏNDƏ BELƏ TƏŞKİLATLAR YOX İDİ”

● **Nazilə xanım, 20 il kiçik tarix deyil. İşinizin miqyası sizi qane edirmi?**

● Biz Kanadaya ilk dəfə gələndə belə təşkilatlar yox idi. Çox vaxt öz səhvlərimizdən öyrənirdik. Biz bir-birimizə mənəvi dəstək verirdik. 2005-ci ildən bəri təşkilatımız müxtəlif mədəni layihələrdə və festivallarda iştirak etməyə başladı. İlk rəqs dərnəyimizin və dərs sinfimizin, eləcə də “Rogers TV”də yayımlanan kanalımızın yaradılmasına təkan verdik. Hətta sonralar “Təbriz” qrupu ilə yerimizi bölüşdük, onlar da bizim məkanımızda məşqlərini keçirməyə başladılar. Xeyriyyəçi fəaliyyətimizi davam etdirərək Qarabağ müharibəsi zamanı şəhid və qazi ailələrinə əhəmiyyətli dəstək göstərdik. Müalicəyə ehtiyacı olan şəxslər də bizə müraciət edirdilər. Zaman keçdikcə Kanadaya immiqrasiya edən azərbaycanlıların sayı artdı. Əvvəllər insanlar dövlətin verdiyi yardımlarla dolana bilirdilər. Təəssüf ki, 2016-cı ildən sonra Kanadada iqtisadi vəziyyət xeyli pisləşdi. Artan immiqrasiya iş imkanlarına mənfi təsir göstərdi.

> *“Kanadada qeyri-hökumət təşkilatları yalnız dövlət yardımı ilə fəaliyyət göstərə bilməz.”*

### “KÖNÜLLÜLÜK PRİNSİPİ ƏSASINDA...”

● **Siz yeni gələn azərbaycanlılara hansı dəstəyi göstərə bilirsiniz?**

● Cəmiyyətimizin imkanları məhdud olsa da, əlimizdən gəldiyi qədər dəstək göstərməyə çalışırıq. Məsələn, elə vətəndaşlarımız vardı ki, sənədləri qaydasında deyildi və bu sahədə ciddi yardıma ehtiyac duyurdular. Və yaxud Azərbaycanda təhsil almış biri diplomunu necə təsdiqlətməli olduğunu bilmirdi. Qurucularımızdan biri, mərhum Elmira Məmmədova onlara kömək edirdi. O, yardım proqramlarına müraciət qaydalarını yaxşı bilirdi və bəzən şiddətə məruz qalan qadınları sığınacaqlara yerləşdirirdi. Hazırda bu işlərdə Könül Qurbanova böyük dəstək göstərir. O, yeni gələnlərə psixoterapiya xidməti ilə də yardım edir. Kanadaya yeni gələnlər arasında ev əşyalarına ehtiyacı olanlar olur və biz onların təmin olunmasına da kömək göstəririk. Eyni zamanda, dövlət yardımına müraciət etməkdə və OSAP – tələbə yardım proqramına yönləndirməkdə dəstək veririk. Minirə Babayeva yardım üçün müraciət edənlərin həqiqətən ehtiyac sahibi olub-olmadığını araşdırır. Yeganə Cəfərova isə artıq 20 ildir cəmiyyətimizin dəstəyi ilə yaradılmış Ana dili məktəbini idarə edir. Biz bütün bu işləri könüllülük prinsipi ilə həyata keçirmişik və bu qayda ilə işləməyə davam edirik.



## “XEYİRXAH İNSANLARIMIZ FƏALİYYƏTİMİZİ GÖRÜRLƏR”



● **Kanada dövləti sizin təşkilata yardım edirmi?**

● Təşkilatımız üzvlərin səmimiyyəti və qayğısı ilə yaşayır. Kanadada bu sektorda fəaliyyət göstərənlər yaxşı bilirlər ki, verilən qrantlar çox cüzi miqdarda olur, lakin qarşılığında genişmiqyaslı işlər tələb olunur. Kanadada qeyri-hökumət təşkilatları yalnız dövlət yardımı ilə fəaliyyət göstərə bilməz. Bu səbəbdən tez-tez ianə kampaniyaları təşkil edilir və ya xeyirxah insanların dəstəyi ilə icmalara xidmət göstərilir. Bizim imkanlarımız bu təşkilatlarla müqayisədə çox azdır. Lakin xeyirxah insanlarımız fəaliyyətimizi görür və təqdir edirlər. On lar bilirlər ki, biz bu işləri mükafat və ya orden almaq üçün deyil, könüllü şəkildə həyata keçiririk.

### “ŞƏFFAF OLMAYAN LAYİHƏLƏRDƏ İŞTİRAK ETMİRİK”

● **Kanadada başqa qeydiyyatdan keçmiş Azərbaycan xeyriyyə təşkilatı varmı?**

● Təşkilatımız dövlət qeydiyyatından keçmiş yeganə Azərbaycan xeyriyyə təşkilatıdır. İmkanlarımız məhdud olsa da, qazi ailələrinə dəstək göstəririk. Bəzən dava-dərman almaqda çətinlik çəkənlərə də yardım etməyə çalışırıq. Ehtiyacı olan tələbələrə yemək bağlamaları göndəririk, azərbaycanlı tələbələrin isti geyim və qida ilə təmin olunmasına kömək edirik. Hər ay 25 azərbaycanlı ailəyə ərzaq yardımı verilir. Əlbəttə, biz demirik ki, qadınların və onların ailələrinin bütün problemlərini həll edirik. Amma ən azı onlara yalnız olmadıqlarını xatırlatmaq istəyirik. Bəzən öz aramızda zarafatla deyirik ki, biz bir nazirliyin və ya departamentin görə biləcəyi işləri məhdud büdcəmizlə görürük. Yaxından əməkdaşlıq etdiyimiz millət vəkilləri və dövlət xadimləri fəaliyyətimiz haqqında yaxşı məlumatlıdırlar. Bu səbəbdən təşkilatımızın 20 illik yubileyi münasibətilə baş nazir də daxil olmaqla bir çox rəsmi şəxslər bizə təbrik mesajları göndərdi. Azərbaycandan isə heç bir təbrik almadıq...

Biz heç bir xarici dövlətdən yardım almırıq. Burada xaricdən maliyyə alan təşkilatlara qarşı ehtiyatlı münasibət var və onların Kanada dövlətinə bağlılığına şübhə ilə yanaşılır. Biz bu həssaslığı anlayırıq və şəffaf olmayan layihələrdə iştirak etmirik.



# SOCAR və “Sinopec Engineering” saziş imzalayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Çinin “Sinopec Engineering” şirkəti arasında əməkdaşlığa dair çərçivə sazişi imzalanıb. “Report” bu barədə SOCAR-a istinadən xəbər verir.

Məlumata görə, şirkətin prezidenti Rövşən Nəcəf “Sinopec Engineering”in prezidenti Zhang Xinming ilə görüş keçirib.

Görüşdə Azərbaycan ilə Çin arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sektorunda uğurla inkişaf etdiyi bildirilib. Bu xüsusda, SOCAR ilə Çin şirkətləri arasında mövcud əməkdaşlıq məmnunluqla qeyd olunub.

Söhbət zamanı neft və qazın emalı sahəsində, neft-kimya, rəqəmsallaşma, enerji keçidi, müasir emal texnologiyalarının tətbiqi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# YADDAŞLARDA YAŞAYAN ALİM

Sənətşünas Ziyadxan Əliyevin məzarüstü abidəsi ucaldılıb. Abidənin müəllifi heykəltəraş Toğrul Ağayevdir. Azərbaycan Rəssamlıq Akademiyasının müəllimi olan müəllif sənətşünasın dostu olub. Bu abidə gənc heykəltəraşın müəlliminə olan hörmətinin təcəssümüdür.

AYSEL ZİYADXANLI

Tarix hər gün yazılır, abidə isə gələcəyə yadigardır. Tanınmış şəxslərin xatirəsini əbədiləşdirilməsi məqsədi ilə heykəllərin, qəbirüstü abidələrin ucaldılmasında xatirə lövhələri və barelyeflərin hazırlanması onların ruhuna ehtiramın göstəricisidir. Bu ənənə hazırda da öz aktuallığını saxlayır. Bu günlərdə milli təsviri sənətimizin “keşiyini” ləyaqətlə çəkmiş, tədqiqatçı alim, görkəmli sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin məzarüstü abidəsi ucaldılıb.

### GƏNC HEYKƏLTƏRAŞIN DOSTUNA DƏRİN EHTİRAMI

Qəbirüstü abidənin müəllifi heykəltəraş Toğrul Ağayevdir. O, 2000-ci illərdə Azərbaycan Rəssamlıq Akademiyasında xalq rəssamı Natiq Əliyevdən dərs alıb, hazırda akademiyanın müəllimidir. Heykəltəraşın sənətşünasla tanışlığı tələbəlik illərinə təsadüf edib, sonradan dostluğa çevrilib. Bu abidə gənc heykəltəraşın müəlliminə dərin hörmətin təcəssümüdür.

### 77 İLLİK ÖMRÜNÜN 43 İLİNİ SƏNƏTƏ HƏSR EDİB

Xatırladaq ki, görkəmli alim Ziyadxan Əliyev 77 illik ömrünün 43 ilini sənətə həsr edib. Azərbaycan təsviri sənətinin tədqiqi və təbliği istiqamətində onun mühüm xidmətləri var. Ziyadxan Əliyev sənətşünaslıq sahəsində parlaq iz qoymuş şəxsiyyətlərdəndir. O, həm elmi, həm də pedaqoji fəaliyyəti ilə milli sənət tarixinin öyrənilməsinə və dünya miqyasında tanıdılmasına böyük töhfə verib. Onun araşdırmaları, məqalələri və kitabları bu gün də sənətşünaslıq elminin mühüm mənbələrindən biri kimi dəyərləndirilir.

Ziyadxan Əliyev elmi fəaliyyətinə 1980-ci ildən Azərbaycan Dövlət İncəsənət Muzeyində elmi işçi kimi başlayıb. Sonradan muzeyin “Qərbi Avropa və rus incəsənəti” şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlib.

1984-cü ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü, 1987-ci ildən isə Rəyasət Heyətinin üzvü olub. O, eyni zamanda bir sıra ali təhsil müəssisələrində incəsənət tarixi fənnindən dərs deyərək yeni nəsil sənətşünasların yetişməsinə töhfə verib.




### ÇOXŞAXƏLİ ELMİ-PUBLİSİSTİK FƏALİYYƏT

Ziyadxan Əliyevin elmi-publisistik fəaliyyəti çoxşaxəli idi. O, Azərbaycan təsviri sənətinin müxtəlif istiqamətlərinə həsr olunmuş yüzdən artıq elmi və publisistik məqalənin, kataloqların və kitabların müəllifidir. Onun tədqiqatları xüsusilə Azərbaycan və Avropa rəssamlarının yaradıcılığının müqayisəli təhlili ilə seçilirdi. O, 2006-cı ildə “Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb. 2018-ci ildə sənətşünas “Kaspi” mükafatı ilə təltif edilmişdi.

# TRENDYOL İLİN ƏN BÖYÜK ENDİRİM KAMPANİYASINA BAŞLAYIR




Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin əsas e-ticarət platforması Trendyol ilin ən böyük endirim kampaniyasına başlayır. Hər il noyabr ayında keçirilən “Super alış-veriş günləri” bu il 6-11 noyabr tarixlərini əhatə edəcək. Kampaniya məişət cihazlarından ev və mətbəx əşyalarına, moda və geyimdən baxım məhsullarına qədər 1500-dən artıq kateqoriyaya daxil olan məhsullara böyük endirimlər təqdim edir. “Super alış-veriş günləri” çərçivəsində müştərilər NOYABR20 kodu ilə 20% endirimdən yararlana bilərlər. Üstəlik, müxtəlif mağazalar kampaniya günlərində xüsusi endirimlər, eləcə də 20%, 30% və 40%-lik endirim kuponları təqdim edir. Kampaniya alış-veriş səbətinə tətbiq edilən özəl endirimlərlə də alış-veriş həvəskarlarını sevindirəcək.

Noyabrı onlayn alış-veriş həvəskarları üçün unudulmaz edən “Trendyol”un fürsətləri bununla bitmir. “Ultra Çarx” və “Paylaş-Qazan” adlı interaktiv aksiyalar noyabr kampaniyasında müştərilərə əlavə kuponlar və bonuslar qazandırmağa davam edəcək.

Kampaniya dövründə Trendyol istifadəçiləri daha rahat ödəmə üsullarından yararlana biləcəklər. “Birbank” taksit kartı sahibi olan müştərilər ödəmələrini 2, 3, 6 hissəyə bölməklə və ya “İndi al, sonra ödə” imkanından istifadə etməklə həyata keçirə bilərlər. Bununla yanaşı, kampaniya günlərində ilk 3 sifariş üçün çatdırılma pulsuz olacaq.

Kampaniyanın reklam üzü Türkiyənin sevilən pop ulduzu Edisdir.

Trendyol bu endirim festivalını “Noyabr deyəndə Trendyol” şüarı ilə təqdim edir.

# "TRENDYOLMİLLA KİDS": UŞAQLAR ÜÇÜN RAHAT VƏ ETİBARLI

Məhsullar Türkiyədə istehsal olunur və "Trendyol"un xüsusi keyfiyyət, təhlükəsizlik standartlarına tam cavab verir. Kolleksiyaya daxil olan hər bir məhsul kimyəvi və fiziki testlərdən keçirilir.



Uşaqlar rahat geyinməyi xoşlayırlar. Paltar onları sıxmamalı, gün boyu sərbəst hərəkət etməyə imkan verməlidir. Valideynlər isə uşaqlarına geyim seçərkən rahatlıqla yanaşı, keyfiyyət və sağlamlıq meyarlarını da əsas götürürlər.

Bunu beynəlxalq araşdırmalar da təsdiqləyir. "Cotton Incorporated Lifestyle Monitor"un 2022-ci və 2023-cü illərdə keçirdiyi sorğuların nəticələrinə görə, valideynlər məktəb mövsümü alış-verişində geyimin rahatlığına (75%), keyfiyyətinə (68%) və davamlılığına (53%) üstünlük verirlər. Sorğuda iştirak edən valideynlərin 84%-i uşaqları üçün pambıq parçadan geyimləri seçdiklərini bildiriblər, çünki onlar rahat, nəfəsalan və uzunömürlüdür.

"Trendyolmilla" uşaqlar üçün hazırladığı "Trendyolmilla Kids" kolleksiyasında bu prinsipləri əsas götürür. Kolleksiya rahatlığı, dəbi və keyfiyyəti bir araya gətirərək həm uşaqların, həm də valideynlərin gözləntilərini qarşılayır.

Kolleksiyanın istehsalında yüksək keyfiyyətli pambıq qarışıqlardan, elastik cins və nəfəs alan toxunma parçalardan istifadə edilir.



## Hər mövsümə uyğun seçimlər

Məhsullar Türkiyədə istehsal olunur və "Trendyol"un xüsusi keyfiyyət və təhlükəsizlik standartlarına tam cavab verir. Kolleksiyaya daxil olan hər bir məhsul kimyəvi və fiziki testlərdən keçirilir.

"Trendyolmilla Kids" 3-14 yaş arası uşaqlar üçün nəzərdə tutulub və onların geyim ehtiyaclarını tam qarşılayır. Gündəlik geyim, ev paltarı, üst geyimi, çimərlik paltarı, məktəb çantası, ayaqqabı və müxtəlif aksessuarlardan ibarət kolleksiya hər mövsümə uyğun seçimlər təklif edir. Hər büdcəyə uyğun qiymətlərlə təklif olunan geyim və aksessuarlar balacaların qarderobunun ən sevimli parçalarına çevrilir. Kolleksiya uşaqlığın enerjisini və yaradıcılığını ortaya çıxarır və onu geyim vasitəsilə əks etdirir. Kollec və şəhər estetikasından ilhamlanaraq ərsəyə gətirilən kolleksiya, qız və oğlan uşaqlarına xas üslubla yanaşı, unisex geyim dizaynı ilə də diqqət çəkir.



## RAHATLIQ, UZUNÖMÜRLÜLÜK VƏ KREATİVLİK

"Trendyolmilla Kids" kolleksiyası rahatlıq, uzunömürlülük və kreativliyin balansını yaradır, eyni zamanda gözoxşayan, trendə uyğun və müasir estetik görünüşə malikdir. Münasib qiymətlərlə təklif olunan geyimlərimizin dizaynı uşaqların hərəkət azadlığını təşviq edir, həm uşaqların, həm valideynlərin eyni dərəcədə könlünü oxşayan dizayndadır. Qiymətlər isə çox münasibdir", deyə "Trendyolmilla" baş direktoru Sanem Tuna bildirib.

Yumşaq və parlaq rəng palitraları, pozitiv qrafiklər və rəng blokları ilə işlənmiş detallar "Trendyolmilla Kids" kolleksiyasını tamamlayır, uşaqların azad ruhunu və fərdiliyini ön plana çıxarır. Bu dizayn yanaşması uşaq geyimlərini rəngarəng və maraqlı edir, onlara özünüifadə imkanı yaradır.

"Trendyol"un azərbaycanlı istifadəçiləri rahatlıq, keyfiyyət və dəbin birləşdiyi bu kolleksiyanı münasib qiymətə "Trendyol" platformasından əldə edə bilərlər.






# "Nar"dan ikinci avtomobil uduldu - həyəcan artır!

Sərfəli mobil operator "Nar"ın "Çoox Şanslı" lotereyası çərçivəsində keçirilən növbəti avtomobil tirajı sevinc dolu anlarla yadda qalıb. Beləliklə, ikinci "Haval H6 Ultra" avtomobilinin sahibi artıq bəlli olub. "Nar" qalib – İsrayıl Məmmədovu təbrik edərək ona avtomobilin açarını təqdim edib. Bundan əlavə, "Xiaomi Redmi Note 14 Pro" smartfonlarını qazanan "Nar" abunəçiləri – Ziya Salayev, Ülvi Nağıyev və Nərminə Məmmədova hədiyyələrini böyük sevinclə qəbul ediblər.

Qaliblər tam təsadüfi seçimlə müəyyən olunub və nəticələr canlı yayımda elan edilib. Qeyd edək ki, "Çoox Şanslı" lotereyası ilin sonuna qədər davam edəcək. Bu müddət ərzində "Nar" abunəçiləri hər gün "Xiaomi Redmi Note 14 Pro", hər həftə "Haval H6 Ultra" və finalda "Li L9 Ultra" avtomobili kimi möhtəşəm hədiyyələr qazanmaq imkanı əldə edirlər.

Xatırladaq ki, "Çoox Şanslı" lotereyasında iştirak etmək üçün "Nar" abunəçiləri sadəcə balanslarını artıra və ya şans qazandıran şanslı paketlərdən birini aktivləşdirə bilərlər. Belə ki, 1 AZN-lik şanslı paketə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik şanslı paketə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES;

3 AZN-lik şanslı paketə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür. Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır.

Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını "Nar+" tətbiqi və nar.az veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər.

Daha ətraflı məlumat üçün: lotereya.nar.az

Kaspi
Üç əsrin qəzeti

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2287
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
9 NOYABR BAZAR 2025




# AZAD TORPAQLARDA İDMAN NƏFƏSİ




Zəfər təkcə hərbi qələbə deyil, həm də ruhun, həyatın, mədəniyyətin və idmanın qələbəsidir. Azad edilmiş ərazilərdə keçirilən hər bir yarış Azərbaycanın yenidənqurma və birləşmə gücünü nümayiş etdirir.

İşğaldan azad edilmiş torpaqlarda dirçəlişin simvollarından biri də idmandır. Silah səslərinin susduğu, sülhün və yenidənqurmanın başladığı bu torpaqlarda artıq start fitləri, finiş xəttindəki sevinc qışqırıqları eşidilir. Azərbaycan dövləti idmanı Böyük Qayıdışın sosial dayaqlarından biri kimi dəyərləndirir və bu yanaşma son illərdə ardıcıl şəkildə reallaşdırılır.

### SUQOVUŞANDA İLK DALĞALAR

İdman tariximizdə azad edilmiş ərazilərdə keçirilən ilk beynəlxalq yarış Suqovuşanda baş tutdu. 2022-ci il mayın 6-da "Prezident Kuboku" üzrə avarçəkmə yarışı təkcə idman hadisəsi deyildi, yeni həyatın başlanğıcı idi. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının təşkilatçılığı ilə reallaşan yarışda müxtəlif klubların idmançıları mübarizə apardılar. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş turnirin açılış mərasimi və ilk yarış günü Suqovuşanda olub. Azərbaycanla yanaşı, Türkiyə, Gürcüstan, Moldova və Özbəkistandan 100-dən artıq avarçəkənin qatıldığı reqatada idmançılar Suqovuşan su anbarında kayak və kanoe növlərində mübarizə apardılar. Bu yarışdan sonra bölgə ildə bir neçə dəfə təlim-məşq toplanışlarının və müxtəlif turnirlərin keçirildiyi məkan kimi fəaliyyət göstərir.

### UCA DAĞLAR BAŞINDA

Şuşa təkcə musiqi və mədəniyyətin deyil, artıq idmanın da mərkəzlərindən birinə çevrilir. 2022-ci ilin sentyabrında orada ilk şahmat turniri baş tutdu. Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunmuş "Shusha Chess"də azərbaycanlı qrosmeysterlərlə yanaşı dünyanın aparıcı "iti zəka sahibləri" də çıxış etdilər. 2024-cü ildə isə Şuşa mərhum şahmatçımız Vüqar Həşimovun xatirə turnirinə ev sahibliyi etdi.

12-13 iyun 2023 tarixlərində şəhərdə FIBA-nın 3x3 Qadın Seriyası turnirinin bir mərhələsi təşkil olundu. Bu, azad edilmiş ərazilərdə keçirilən ilk beynəlxalq basketbol yarışı oldu. Həmin yay Şuşa daha bir beynəlxalq tədbirə – "Əziz Şuşa" velosiped yarışına ev sahibliyi etdi. İdmançılar məhz Şuşada finiş xəttini keçdilər. Bu, həm bölgənin təhlükəsizliyinin təmin olunduğunu, həm də beynəlxalq turnirlərin keçirilməsinə texniki şəraitin mövcudluğunu nümayiş etdirdi.




### İDMANIN ŞAHI XANKƏNDİDƏ

İdman həyatının bərpasında Xankəndinin rolu xüsusilə diqqət çəkir. Orada idman həyatının bərpasında ən yaddaqalan hadisə 2023-cü ilin dekabrında yaşandı. 21 dekabr 2023-cü ildə Xankəndi şəhər stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsi çərçivəsində "Qarabağ" və MOİK komandaları üz-üzə gəldi. Bu, torpaqlarımız azad olunduqdan sonra Qarabağda keçirilən ilk futbol oyunu idi. Azərbaycan Prezidenti İlham Əliyevin sözügedən oyunda iştirak etməsi də bu hadisənin əhəmiyyətindən xəbər verir. Tədbir təkcə idman hadisəsi deyil, həm də milli birliyin nümayişi oldu.







Keçən il ilk dəfə Xankəndi - Bakı ultramarafonu keçirildi. İştirakçılar 380 km qət edərək finişə paytaxtımızda çatdılar. Bu ilin aprelində isə Qəbələ - Xankəndi ultramarafonu baş tutdu. 192 km məsafəni qət edən idmançılar Xankəndidə finişə çatdılar. Bu yarışlar bir növ dözümlülüyün simvolu idi.

Bu il Xankəndi şəhəri üçün daha bir önəmli mərhələ başladı. III MDB Oyunları çərçivəsində kamandan oxatma yarışları burada keçirildi. Turnir yüksək səviyyədə təşkil olundu və Xankəndinin beynəlxalq idman xəritəsindəki yerini möhkəmləndirdi.

### "İMARƏT" YENİDƏN DOĞULUR

Azərbaycan futbol tarixinin simvollarından biri olan "İmarət" stadionu artıq yenidən inşa edilir. 2024-cü ilin 19 sentyabrında Prezident İlham Əliyev Ağdamda yeni stadionun təməlini qoydu.

### III MDB OYUNLARI



Yeni arena UEFA-nın IV kateqoriyası standartlarına uyğun olaraq layihələndirilib və 11 700 tamaşaçı tutumuna malik olacaq. Stadionun açılışı 2026-cı ilə planlaşdırılır. Bu, Ağdamın və bütövlükdə Qarabağın idman infrastrukturu baxımından ən mühüm bərpa layihələrindən biridir.

### YENİ İNFRASTRUKTUR – GƏLƏCƏYƏ BAXIŞ

Azad edilmiş ərazilərdə idman infrastrukturu da qurulur. Xankəndi şəhər stadionunun yenidən qurulması, "İmarət" stadionunun tikintisi, irili-xırdalı digər idman infrastrukturu layihələrinin icrası Böyük Qayıdışa dair Dövlət Proqramının tərkib hissəsidir. Yaxın illərdə bir sıra idman obyektlərinin istifadəyə verilməsi planlaşdırılır. Bu layihələr həm yerli gənclərin idman fəaliyyətinə qoşulmasına, həm də beynəlxalq turnirlərin keçirilməsinə şərait yaradacaq. Ərazilərdə artıq federasiyaların təlim-məşq düşərgələri, uşaq idman məktəbləri və gənclər liqaları üçün planlar təsdiqlənib.

Zəfər təkcə hərbi qələbə deyil, həm də ruhun, həyatın, mədəniyyətin və idmanın qələbəsidir. Azad edilmiş ərazilərdə keçirilən hər bir yarış Azərbaycanın yenidənqurma və birləşmə gücünü nümayiş etdirir.